# Salyan ölkənin ümumi inkişafına öz töhfələrini verir

❐ ***Salyan rayonu son illərdə ölkəmizin qəti addımlarla inkişaf edən regionlarındandır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi regional inkişaf proqramları əsasında da rayonda bir sıra miqyaslı işlər görülmüş, abadlıq-quruculuq tədbirləri həyata keçirilmiş, təkcə sənaye deyil, həm də kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində ciddi uğurlar əldə edilmişdir. Rayon zəhmətkeşləri heç bir sahədə ölkənin ümumi inkişafından kənarda qalmaq istəmir, ümumi işə öz töhfələrini verməyə çalışırlar.***

## Neft gəlirləri azalsa da...

**Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov bildirdi ki, son dövrdə rayon üçün ən əlamətdar hadisə sentyabr ayının 3-də Prezident İlham Əliyevin rayona səfəri olmuşdur:** "Səfər zamanı Prezident Salyan şəhərinə Şirvan-Muğan magistral su kəmərindən çəkilmiş yeni içməli su xəttinin, Tarix-Diyarşünaslıq Muzeyinin, Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının inzibati binalarının, Babazanan yaşayış massivini şəhərin mərkəzi ilə birləşdirən körpünün və Ələt-Astara-İran dövlət sərhədi avtomobil yolunun 31-54 kilometrlik hissəsinin açılışında iştirak etmiş, Kürsəngi kəndindəki pambıq sahələrinə baxış keçirmiş, pambıqçılarla görüşmüşdür. Bu görüş zamanı Prezident rayonumuzun sosial-iqtisadi potensialını yüksək qiymətləndirmiş, Salyan rayonunun inkişafı üçün yeni dövr, yeni mərhələ başladığını bildirmiş, rayonda kənd təsərrüfatının və sənayenin inkişafı ilə əlaqədar öz tövsiyə və tapşırıqlarını vermişdir".

## Salyan abadlaşır, gözəlləşir



Başçı qeyd etdi ki, rayonda abadlıq və quruculuq işləri uğurla davam etdirilir. Prezidentin 26 avqust 2016-cı il tarixli sərəncamı ilə Çuxanlı-Piratman-Gəncəli-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə 3,8 milyon manat vəsait ayrılmışdır. 30,2 kilometr kəndarası avtomobil yolunun tikintisi əsasən başa çatdırılmışdır, hazırda son tamamlama işləri aparılır. Prezidentin 7 sentyabr 2016-cı il tarixli sərəncamı ilə Salyan şəhərində 1200 şagird yerlik yeni ümumtəhsil məktəb binasının tikintisi üçün Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ilkin olaraq 3 milyon manat vəsait ayrılmışdır. Nazirlər Kabinetinin sərəncamına əsasən, Salyan rayonunda pambıqçılığın inkişafı ilə əlaqədar 5000 hektar sahənin suvarma suyu ilə təmin edilməsi üçün 500 min manat, Prezidentin 2017-ci il 13 yanvar tarixli, 2607 nömrəli sərəncamına əsasən isə, 1 milyon 300 min manat vəsait ayrılmışdır.

2016-cı ilin avqust ayından başlayaraq İkinci Azərbaycan Kənd İnvestisiya layihəsinin maliyyə dəstəyi ilə rayonun kəndlərində bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, Parça Xələc, Seyidan, Qarabağlı, Gomuşlu, Təzəkənd, Kolanı, Yenikənd kəndlərində ümumi uzunluğu 54 km olan kənddaxili yollara çınqıl döşənmiş, Şəkərli kəndində tibb məntəqəsinin tikintisinə başlanılmışdır. Çuxanlı kəndində yem sexinin, Kərimbəyli kəndində uşaq bağçasının, Kürsəngi, Başirbəyli kəndlərində əlavə sinif otaqlarının, İkinci Varlı, Boranıkənd, Çadırlı, Quyçu kəndlərində tibb məntəqələrinin, rayonun 17 kəndində isə kənddaxili yolların təmiri ilə əlaqədar səfərbərlik yığıncaqları, informasiya görüşləri keçirilmiş, təlimlər verilmişdir. 2017-ci ildə Üçüncü Azərbaycan Kənd İnvestisiya layihəsi çərçivəsində işlərin davam etdirilməsi nəzərdə tutulmuşdur.

Salyan şəhərində Yeni Azərbaycan Partiyasının rayon təşkilatı üçün inzibati binanın, "Babazanan" yaşayış massivini Salyan şəhəri ilə birləşdirən və Ələt-Astara magistral avtomobil yolunda, Çuxanlı kəndi ərazisində Kür çayı üzərində körpülərin, Seyidan kəndində 132 şagird yerlik yeni məktəb binasının tikintisi başa çatdırılmış, Ələt-Astara yolunun 29,5-ci km-də Baş Dövlət Yol Polisinin Yol Patrul Xidməti üçün yeni inzibati bina tikilib istifadəyə verilmişdir. Rayon prokurorluğu və kənd təsərrüfatı idarəsi üçün inzibati binaların, 24 mənzilli 5 və 27 mənzilli 7 mərtəbəli yaşayış binalarının tikintisi başa çatmaq üzrədir. Başqa bina və abidələrin bərpası istiqamətində də mühüm işlər görülmüşdür.

Bayraq meydanının baxımsızlıq nəticəsində sıradan çıxması ilə əlaqədar cari təmir işləri aparılmışdır. Meydanın qarşısında olan 450 metrdən artıq uzunluğu olan və tam sıradan çıxmış küvet yenidən tikilmişdir.

## Qeyri-neft sektorunda tərəqqi

Rayonda qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, yeni istehsal, İqtisadi İnkişaf Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondunun kreditləri və sahibkarların vəsaiti hesabına yeni istehsal və emal sənayesi sahələrinin yaradılması istiqamətində işlər aparılmışdır. Qarabağlı, Yenikənd və Xələc kəndlərində hər birinin sahəsi 1 hektar olan 6 müasir tipli istixana yaradılmış, Salyan şəhərində "SÜNBÜL-2012" MMC tərəfindən un dəyirmanının və 2 mərtəbəli bazar-ticarət mərkəzinin tikintisinə başlanılmışdır. Ölkə başçısı tərəfindən sahibkarlığın inkişafına yaradılmış münbit şəraitin nəticəsi olaraq rayonda "BRM üzüm"MMC, "Gilə"MMC, "Qaraçala MMC", "Balacans" MMC, Qarabağlı kooperasiya və sair iri təsərrüfatlar yaradılmışdır. "Ələddin Fermer" MMC-nin illik istehsal gücü 600 ton olan meyvəqurutma müəssisəsinin, Qaraçala qəsəbəsində 2400 başlıq heyvandarlıq kompleksinin, Kür Qaraqaşlı kəndində "Nurgün Aqro" MMC-də 400 başlıq heyvandarlıq kompleksinin və 40 başlıq müasir tələblərə cavab verən kompüterləşmiş sağım sexinin tikintisi başa çatdırılmışdır.

Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 2016-cı ildə 2381 daimi olmaqla 4005 yeni iş yeri yaradılmışdır. Məhsul buraxılışının həcmi müvafiq dövrə nisbətən 36 milyon 529 min manat, yəni 14,8 faiz artaraq 282 milyon 687 min manat, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 803 min manat, yəni 0,6 faiz artaraq 144 milyon 195 min manat, poçt və rabitə xidmətinin həcmi 19,9 min manat, yəni 3,5 faiz artaraq 584 min manat, pərakəndə satış dövriyyəsi 33 milyon 181 min manat, yəni 19,1 faiz artaraq 206 milyon 664 min manat, əhaliyə göstərilən pullu xidmət 6 milyon 861 min manat, yəni 14,7 faiz artaraq 53 milyon 572 min manat, sənaye məhsulunun ümumi həcmi 25 milyon 715 min manat, yəni 66,3 faiz artaraq 64 milyon 451 min manat, nəqliyyat xidmətinin həcmi 2 milyon 266 min manat, yəni 2,4 dəfə artaraq 3 milyon 899 min manat, əsas kapitala yönəldilən investisiya 77 milyon 928 min manat olmuşdur. Bir nəfərə düşən məhsul buraxılışının həcmi 2088 manat, bir nəfərə düşən orta aylıq əmək haqqı 302,5 manat olmuşdur.

Rayonda 21239 hektar taxıl sahəsindən 64850 ton olmaqla, 30,5 sentner məhsul toplanmışdır. 870 hektar qarğıdalı sahəsindən 6089.1 ton, 423 hektar kartof sahəsindən 5107,5 ton, 1092 hektar bostan sahəsindən 15708,0 ton, 1272 hektar tərəvəz sahəsindən 14061,0 ton məhsul yığılmışdır. Faraş tərəvəz istehsalının artırılması və ixracının təşviq edilməsi istiqamətində tədbirlər davam etdirilir. 2016-cı ildə 1544,1 tondan çox üzüm tədarük edilmişdir. Rayonda 1187 hektar üzüm bağı var, bundan 951,9 hektar bar verən üzüm bağlarıdır. 2826,7 tondan çox meyvə tədarük edilmişdir. 2167,7 hektar sahədə pambıq əkilmişdir. Rayonda pambıq yığımı başa çatmış, 2680,4 ton olmaqla, hər hektara 12,4 sentner məhsul toplanmışdır. Artıq 2017-ci il üçün pambıq əkininə hazırlıq işinə başlanılmışdır. Əkiləcək 7000 hektar torpaq sahəsi müəyyən edilmiş, 5000 hektardan çox əkin sahəsi şumlanmışdır. Hazırda pambıq əkini üçün sahələrin arata qoyulması işi davam etdirilir. Rayonun Qızılağac kəndi ərazisində yeni Aqroparkın yaradılmasına başlanılmışdır. 2017-ci il yanvar ayının 1-nə iri buynuzlu heyvanların sayı 62 min 914 baş, o cümlədən inək və camışlar 33 min 426 baş, qoyun və keçilər 186 min 714 baş olmuşdur. Ət istehsalı (diri çəkidə) 13 min 178 ton, yumurta istehsalı 34 milyon 800 min ədəd, yun istehsalı 346,1 ton, süd istehsalı isə 45 min 11 ton olmuşdur.

2016-cı ildə rayonun yerli büdcəsinin gəlirləri 7 milyon 710 min manata qarşı 8 milyon 496 min manat, büdcənin xərcləri 22 milyon 677 min manat proqnoza qarşı 22 milyon 239 min manat icra edilmişdir. Büdcənin gəlir və xərclərini tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən 14 milyon 967 min manat proqnoza qarşı 14 milyon 575 min manat, yəni nəzərdə tutulduğundan 392 min manat az dotasiya alınmışdır. Rayonun büdcə təşkilatlarında çalışan işçilərin əmək haqqı, pensiya və müavinətlər vaxtında tam ödənilmişdir.







## Sosial qayğılar həllini tapır

Rayon əhalisinin sosial problemlərinin həll edilməsi daim diqqət mərkəzində saxlanılır, 1433 ailənin 6193 üzvünə sosial yardım verilir. Bir ailəyə düşən sosial yardımın orta məbləği 153,61 manat təşkil etmişdir. 5292 nəfərə sosial müavinət ödənilir.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı pensiya islahatları uğurla həyata keçirilir. Rayonda 15 min 895 nəfər pensiyaçıya xidmət olunur, onlardan yaşa görə 10 min 159, əlilliyə görə 4002 nəfər və ailə başçısını itirməyə görə 1734 nəfər pensiya alır. Cəmi pensiyaçılardan 1412 nəfəri işləyənlərdir.

Əhalinin elektrik, təbii qaz və içməli su təminatı sahəsində müəyyən işlər görülmüşdür. Rayon üzrə 33487 abonent elektrik enerjisindən istifadə edir. Salyan Elektrik Şəbəkəsinin xidməti ərazisində hesabat ilində 35 ədəd müxtəlif gücdə olan transformator əsaslı, 595 ədəd müxtəlif gücdə olan transformator isə cari təmir olunmuşdur. 4735 ədəd qüsurlu sayğac dəyişdirilmiş, 1019 yeni abonentə sayğac quraşdırılmışdır. Rayon ərazisində fiziki köhnəlmiş çılpaq naqillərinin SİB kabellə əvəz olunması ilə əlaqədar 424 ədəd dəmir və dəmir-beton dayaq və 31 ədəd dəmir-beton diblik quraşdırılmış, fiziki köhnəlmiş 1030 ədəd ağac dayaq yeni dəmir və dəmir-beton dayaqla əvəz olunmuşdur. Rayon ərazisində 35 ədəd 10/6/0.4 kV-luq transformator yarımstansiyası quraşdırılmış, Kür Qaraqaşlı və Xurşud kəndlərində müvafiq olaraq 110 və 35 minlik yeni transformator yarımstansiyalarının tikintisinə, 35 minlik Gomuşlu yarımstansiyasının yenidən qurulmasına başlanılmışdır.

Salyan şəhərinin mərkəzi və ətraf kəndlərində istehlakçıların qaz təsərrüfatına quraşdırılmış qaz sayğaclarının yeni çəkilmiş xətlər üzərinə köçürülməsi işləri davam etdirilir. 2016-cı ildə Yeni Uluxanlı kəndində 229 evə, II Varlı kəndində 200 evə, I Varlı kəndində 256 evə, Marışlı kəndində 250 evə, Çadırlı kəndində 477 evə, Pambıqkənd və Başirbəyli kəndlərində ümumilikdə 459 evə, şəhərin Ə.Quliyev küçəsində isə 24 evə qaz verilişi bərpa edilmişdir. Rayon üzrə il ərzində ümumi uzunluğu 143282 metr boru xətti çəkilmiş, 2498 yeni ev qazlaşdırılmış, təbii qazla təmin olunan abonentlərin sayı 23459-a çatdırılmışdır.

## Təhsil və səhiyyəyə qayğı artır



Rayonun təhsil sahəsində müəyyən işlər görülmüş, 14 məktəbdə 242 min 633 manatlıq əsaslı və cari təmir işləri görülmüşdür. Ötən tədris ilinin nəticələrinə görə, 1506 nəfər ümumi orta təhsil haqqında şəhadətnamə, 1212 nəfər isə tam orta təhsil haqqında attestat almışdır. Məzunlardan 352 nəfəri ali, 106 nəfəri orta ixtisas təhsili müəssisələrinə daxil olmuşdur. 70 nəfər 500-dən yuxarı, 21 nəfər 600-dən yuxarı bal toplamışdır. Hər il olduğu kimi, Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə müxtəlif şəhər və rayonlarda yaşayan məktəbli gənclərin respublikamızın digər bölgələrinə səyahətinin təşkili davam etdirilir. "Ölkəmizi tanıyaq" devizi altında təşkil olunan bu tur-aksiyalarda 40 məktəbli Gəncə şəhərinə, Göygöl və Şəmkir rayonlarına səfər etmişdir. İstedadlı uşaqlarla iş diqqət mərkəzində saxlanılmışdır.

Əhalinin sağlamlığının qorunması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Məhz onun tapşırığına əsasən, artıq üçüncü ildir ki, 18 yaşdan yuxarı əhalinin tibbi müayinəsi, 18 yaşadək uşaqların icbari dispanserizasiyası aparılmışdır. Hemodializ şöbəsində 57 xəstəyə tibbi xidmət göstərilir. Burada Salyan sakinləri ilə yanaşı Neftçala və Sabirabad rayon sakinlərinə də lazımi tibbi yardım alırlar.

Vərəm, şəkərli diabet, onkoloji, QİÇS və qan xəstələri dövlət tərəfindən müəyyən edilmiş qaydalara dərman preparatları ilə təmin edilmişlər. İl ərzində şəkərli diabet xəstələrinə 271 min 275 manat dəyərində dərman, dializ xəstələrinə 471 min 562 manatlıq, vərəm xəstələrinə isə 782 min manatlıq dərman preparatları verilmişdir.

Rayonda 10 mədəniyyət evi, 22 klub, 47 kitabxana, Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq muzeyi, Dövlət Rəsm Qalereyası, Dövlət Kukla Teatrı, İncəsənət və Musiqi məktəbləri əhaliyə mədəni xidmət göstərir. Əhalinin fiziki sağlamlığı, idmanın kütləviliyi, uşaq, yeniyetmə və gənclərin idman sahəsində nailiyyətlər əldə etməsi istiqamətində müəyyən işlər görülmüşdür.

## Vətəndaşların qəbulları

Rayon İcra hakimiyyətinin fəaliyyətinin əsasını təşkil edən prioritet sahələrdən biri də vətəndaşların qəbulu, onların müraciətlərinə vaxtında baxılmasıdır. 2016-cı ildə ümumilikdə, 6917 nəfər vətəndaş qəbul olunmuşdur. Rayon icra hakimiyyətinin başçısı tərəfindən isə 2690 nəfər vətəndaş qəbul edilmişdir.

Daxil olmuş müraciətlərlə əlaqədar vətəndaşlarla istər yaşayış yerlərində, istərsə də rayon icra hakimiyyətində dəvət olunaraq görüşülmüş, müraciətləri dinlənilmiş və mümkün olan tədbirlər görülmüşdür. Daha ciddi araşdırma tələb edən müraciətlərlə əlaqədar vətəndaşların rayon icra hakimiyyəti başçısı tərəfindən qəbulu təşkil edilmiş və müraciətləri icra hakimiyyəti başçısı səviyyəsində araşdırılmışdır.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***